*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 iyun 2018-ci il № 43 (2259) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir



*Hər bir xalqı dünyada tanıdan, məşhurlaşdıran, aparıcı söz sahibinə çevirən amillərdən biri də onun ordusudur. Tarixən hər bir millət ordusuna güvənib, onu milli qürur və fəxarət ünvanı sayıb. Qüdrətli ordusu olan dövlət nəinki maraq və mənafeyini layiqincə qoruya bilib, eyni zamanda, dünya siyasətinə əsaslı təsir imkanları əldə edib. Güclü dövlətin təməl prinsiplərindən biri də qüdrətli ordunun mövcudluğudur. Bu gün müstəqil Azərbaycan dövləti güclü orduya sahibdir və Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir sırada öz layiqli yerini tutub.*

Bütün bunları əsas tutan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarında hər zaman ölkəmizin güclü və modern orduya sahib olduğunu diqqətə çatdırır. Bildirir ki, Azərbaycan Ordusunun döyüş hazırlığı yüksək səviyyədədir. “Bu gün Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur. Təkcə kəmiyyət etibarilə deyil, peşəkarlıq və təminat-təchizat baxımından da ordumuz öndədir.”

Prezident İlham Əliyev mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda da çıxışı zamanı ordu quruculuğu məsələlərinə və nizami ordunun formalaşması prosesinə münasibətini bildirib.

Milli ordumuzun əsasının Azərbaycan Xalq Cümhuriyyəti dönəmində qoyulduğunu, müasir dönəmdə isə Ümummilli Lider tərəfindən yaradıldığını və formalaşdırıldığını bildirən Prezident İlham Əliyev bu gün də tarixi ənənələrin davam etdirildiyini qeyd edib. Azərbaycan Ordusunun dünyanın ən güclü 50 ordusu sırasında yerləşdiyini, maddi-texniki təchizatının, döyüş qabiliyyətinin yüksəldiyini bildirən ölkə başçısı qazanılan nailiyyətlərin güclü iqtisadiyyatın sayəsində mümkün olduğunu diqqətə çatdırıb.


**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

15 İyun Milli Qurtuluş Günüdür

# Dövlətimizin və müstəqilliyimizin xilaskarı

*Azadlıq və müstəqillik həm hər bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Xalqımız azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözlədi, mübarizə apardı, bu yolda minlərlə şəhid verdi. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqilliyi də qorumaq mümkün deyil.*



Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələrin canlı şahidi olan insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyinin qazanılmasında, xoş, firavan gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa-dayaq olan bir insan - ümummilli liderimiz Heydər Əliyevdir.

Ulu Öndərin müstəqil, balanslı və cəsarətli siyasət yürütməsi bütün Azərbaycan xalqının ümidlərini artırırdı. Yalnız dahi rəhbər Heydər Əliyevin siyasi təcrübəsi, dövləti idarəetmə bacarığı, iradəsi ölkəni və xalqı xaosdan, dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas edə bilərdi. Azərbaycan xalqı mürəkkəb geosiyasi oyunların vüsət aldığı regionumuzda bu böyük siyasi xadimin hakimiyyətə gəlməsini qətiyyətlə tələb edərək öz tarixi seçimini etdi. Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışından sonra hər şeydən öncə ölkədə əmin-amanlıq üçün şərait yarandı. Qısa zamanda cinayətkarlığın qarşısı tam alındı, özbaşınalığa səbəb olan bütün qanunsuz silahlı dəstələr ləğv edildi. Dövlət rəhbərliyinin böyük zəhməti hesabına yaranan ictimai sabitlik, cəbhədə əldə olunan atəşkəs respublikanın inkişaf kursunu müəyyən etməyə imkan verdi. Bu da dövlət quruculuğu prosesinin uğurla aparılmasına geniş şərait yaratdı. Ən başlıcası isə odur ki, Ulu Öndərin siyasi təcrübəsi suverenliyimizi qoruyub saxlamağa şərait yaratdı, müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi geniş vüsət aldı. Müstəqil Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun ilk Konstitusiyası referendum yolu ilə qəbul edildi. Bir sözlə, ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra milli-mənəvi sərvətlərimiz, dilimizə, dinimizə, tarixi irsimizə qayğı dövlət siyasəti səviyyəsinə qaldırıldı.

Böyük siyasi xadim Heydər Əliyevin qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni milli ideologiyanın əsası qoyuldu. İndi regionda heç bir layihə Azərbaycanın razılığı və ya iştirakı olmadan həyata keçə bilməz. Azərbaycan bu illərdə dünyanın nəhəng dövlətləri ilə sıx münasibətlər qurdu, Avropa Şurasına və bir sıra beynəlxalq təşkilatlara tamhüquqlu üzv qəbul olundu. Üçrəngli bayrağımız beynəlxalq təşkilatlarda dalğalandı. Bu, bir xalqın, bir dövlətin məhz ulu öndər Heydər Əliyevin zəhməti ilə başa gələn qələbəsi idi. Bu qələbənin əsası məhz 15 iyunda qoyuldu.

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunda da əsaslı dönüş yarandı. Azərbaycan Ordusunda baş alıb gedən neqativ halların, fərariliyin aradan qaldırılması, vahid rəhbərlik prinsipinin bərqərar edilməsi, hərbi kollektivlərdə mənəvi-psixoloji vəziyyətin yüksəldilməsi, maddi-texniki təminatın gücləndirilməsi və dünya standartlarına cavab verməsi müasir ordunun formalaşdırılması istiqamətində köklü tədbirlər həyata keçirilməyə başlandı.

Azərbaycan əsgərinin xoş sorağı bu gün beynəlxalq sülhməramlı əməliyyatlardan gəlir. İraq və Kosovoda əmin-amanlıq yaradılması üçün vaxtilə həmin bölgələrə ezam olunmuş bölmələrimiz üzərlərinə düşən missiyanı layiqincə və məharətlə yerinə yetirirdilər. Hazırda Silahlı Qüvvələrimizin bir bölüyü Əfqanıstanda sülhməramlı əməliyyatlarda uğurla iştirak edir. Azərbaycan Ordusunun qazandığı bütün nailiyyətlər Ümummilli Liderin vaxtilə ordu quruculuğu sahəsində apardığı köklü islahatların nəticəsidir.

Müstəqil dövlətimizin keçdiyi inkişaf yolu göstərdi ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdış günü olan 15 iyun Azərbaycan xalqının Milli Qurtuluş Günü kimi tarixə iri hərflərlə yazılıb. Azərbaycan dövləti məhv olmaq, siyasi xəritədən silinmək təhlükəsindən, Azərbaycan xalqı vətəndaş müharibəsi, qardaş qırğınından, yenidən hansısa xarici qüvvələrin təsiri altına düşməkdən dahi şəxsiyyət Heydər Əliyevin müdrikliyi, böyük siyasi təcrübəsi sayəsində xilas edildi və ölkəmizin inkişafı tamamilə yeni, işıqlı və perspektivli gələcəyə istiqamətləndi. Beləliklə, Ümummilli Liderimiz öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi sübut etdi ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir.

Heydər Əliyev dünyaya sübut etməyi bacardı ki, Azərbaycanın qədim dövlətçilik ənənəsi var. Həmin ənənəni bu gün layaqətlə davam etdirən Heydər Əliyev kursunun layiqli davamçısı Prezidentimiz İlham Əliyevdir. Aparılan siyasi kursun doğruluğunu sübut etmək üçün son vaxtlar görülən quruculuq işlərinə, əldə olunan nailiyyətlərə diqqət yetirsək, özülü Ümummilli Lider tərəfindən qoyulmuş inkişafın miqyasını təsəvvür etmək çətin olmaz.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu və bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən davam etdirilən dövlət quruculuğu və iqtisadi inkişaf strategiyası özünün parlaq bəhrəsini verməkdədir.

**"Azərbaycan Ordusu"**

Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir

**(Əvvəli 1-ci səhifədə)**

Prezident Azərbaycanın güclü iqtisadi əsaslar üzərində qurulan bir dövlət kimi formalaşdığını, heç bir dövlətdən asılı olmadan inkişaf etdiyini, bütün bunların fövqündə qüdrətli orduya sahib olduğunu vurğulayıb. Bununla da ölkə başçısı dövlətimizin, ordumuzun daima uğurla inkişaf etməsi, şəxsi heyətimizin torpaqlarımızı işğaldan azad etmək iqtidarında olması və Azərbaycan Ordusunun müstəqilliyimizin, təhlükəsizliyimizin qarantına çevrilməsi mesajını verib: "Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir".

Prezident onu da vurğulayıb ki, Azərbaycan Ordusunda qazanılan nailiyyətlər təkcə inkişaf ilə, maddi-texniki təchizat, müasir silah və texnikaların yüksək səviyyəli təminatı baxımından yekunlaşmayıb, eyni zamanda döyüş meydanında da qalibiyyət ilə nəticələnib: "Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində aparılan işlər nəticəsində sözügedən problemin həlli istiqamətində hüquqi bazanın formalaşması məsələsinə toxunan ölkə Prezidenti BMT Təhlükəsizlik Şurasının, ATƏT-in, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, GUAM-ın, ECO-nun və digər təşkilatların qəbul etdiyi qərarları vurğulamaqla yanaşı, iqtisadi əsaslara söykənən güclü ordunun formalaşmasını da qeyd edib: "Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, nə qədər dünya ermənipərəst çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıb."

Prezident çıxışında bildirib ki, bu gün dünya birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləməsi böyük nailiyyətimizdir. Bütün bunların arxasında güclü Azərbaycan amilinin dayanmasını bildirən ölkə başçısı tarixi torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verilməyəcəyini bir daha vurğulayıb: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasıdır", - deyə Prezident qeyd edib və xalqın istəyindən irəli gələn əqidəsini ortaya qoyub. Bununla ölkə Prezidenti münaqişənin həllinin ikinci alternativ variantının və Ermənistanın konstruktiv danışıqlar stolu arxasında oturmaqdan başqa yolunun olmadığını bu və ya digər formada aparıcı dünya ölkələrinin rəhbərlərinin, eyni zamanda elitasının diqqətinə çatdırıb.

Görülən işlərin, aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsi olduğunu da qeyd edən ölkə başçısı dinamik inkişafın və tərəqqinin bu birlikdən asılı olduğunu bildirib: "Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər".

Sonda ölkə başçısı müstəqilliyimizin ən böyük sərvətimiz olduğunu qeyd edib: "Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir".

**"Azərbaycan Ordusu"**

# "Milli Qurtuluşdan Zəfərə doğru"

## Müdafiə Nazirliyinin təşkilatçılığı ilə kütləvi vətənpərvərlik tədbirləri aylığına start verilib

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində ümummilli lider Heydər Əliyevin Azərbaycan hakimiyyətinə qayıdışının 25-ci ildönümü və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş kütləvi vətənpərvərlik tədbirləri aylığının təntənəli açılış mərasimi olub.*



Əvvəlcə ulu öndər Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Layihənin müəllifi, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani "Milli Qurtuluşdan Zəfərə doğru" devizi altında keçiriləcək hərbi vətənpərvərlik aylığının məqsədi, mahiyyəti və proqramı barədə ətraflı məlumat verərək bildirib ki, tədbirlərdə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında, eləcə də müstəqil Azərbaycan Respublikasının ordu quruculuğunda müstəsna xidmətləri bir daha xatırlanacaq, şəhər və rayonlardakı Heydər Əliyev mərkəzləri, muzey və abidələr, həmçinin Şəhidlər xiyabanları ziyarət ediləcək, Silahlı Qüvvələrimizin tarixinə nəzər salınacaq, görkəmli hərbçilərin xatirələri yad olunacaq, elm, ədəbiyyat, incəsənət xadimləri, Böyük Vətən müharibəsi, Əfqanıstan və Qarabağ müharibəsi veteranları ilə görüşlər keçiriləcək, Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, Həzi Aslanov adına Mərkəzi və Gəncə Qarnizonu Zabitlər Evlərinin yaradıcı kollektivlərinin, incəsənət ustalarının cəbhə bölgələrinə səfərləri təşkil ediləcək, hərbi vətənpərvərlik mövzusunda çəkilmiş sənədli və bədii filmlər nümayiş olunacaqdır.



Nəzərə çatdırılıb ki, Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşacaq teatrlaşdırılmış, kinolaşdırılmış kütləvi vətənpərvərlik bayramına on mindən çox rayon sakini, hərbi qulluqçu və qonaqların qatılacağı gözlənilir.

Şəmkir, Göygöl, Qusar, Xaçmaz, Salyan, Lerik və digər rayonlarda "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" adlı ədəbi-bədii gecələr, "Azərbaycan Xalq Cümhuriyyətinin Döyüş Bayrağına düzlən!" devizi altında bədii-təşviqat marafonu keçiriləcəkdir.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev mərasim iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayaraq qeyd edib ki, ölkəmizdə gənc nəslin Heydər Əliyev ideyaları əsasında, vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimizə, şanlı hərb tariximizə sədaqət istiqamətində tərbiyə edilməsi, formalaşdırılması günümüzün aktual mövzularındandır. Bu məsələyə dövlət rəhbərliyi səviyyəsində xüsusi önəm verilir və ardıcıl, məqsədyönlü iş aparılır.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, nəinki birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində, eləcə də yerli icra hakimiyyəti orqanları ilə birlikdə rayonlarda mütəmadi olaraq silsilə tədbirlər həyata keçirilir və hər bir vətəndaş, hər bir əsgər Ali Baş Komandanın əmrlərinə daima hazır olmağa istiqamətləndirilir.

General-mayor Rasim Əliyev əmin olduğunu bildirib ki, kütləvi vətənpərvərlik tədbirləri aylığı da Vətənə, dövlətə, xalqa, ordumuza, eləcə də Heydər Əliyev ideyalarına sədaqətin təntənəsinə çevriləcəkdir.

Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirov ulu öndər Heydər Əliyevin xalqın tələbi və xahişi ilə 1993-cü ildə Azərbaycan hakimiyyətinə qayıdışını əsl vətənpərvərlik nümunəsi, xilaskarlıq missiyası kimi dəyərləndirib.

"Bu qayıdış təlatümlər qoynunda yelkənsiz qayıq kimi çırpınan doğma Azərbaycanımızı parçalanmaq təhlükəsindən, Vətənimizi vətəndaş müharibəsi, müstəqilliyini yenicə bərpa etmiş dövlətimizi isə çevriliş cəhdlərindən xilas etdi, ölkəmizin ordu quruculuğunda yeni bir mərhələnin bünövrəsini qoydu. Azərbaycan əsgəri öz Ali Baş Komandanını ön səngərdə gördü. O böyük dahidən, qətiyyətli sərkərdədən xeyir-dua alaraq üzərində "Heydər Əliyev uğrunda irəli!" sözləri yazılmış tanklarla, zirehli texnikalarla döyüş meydanlarına atıldı. Qarabağ müharibəsi tarixinə "Horadiz əməliyyatı" kimi düşmüş döyüş əməliyyatları zamanı Füzuli və Cəbrayıl rayonlarının 20-dən çox yaşayış məntəqəsi düşməndən azad edildi.

2016-cı ilin aprelində isə bu qələbə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə təkrarlandı. Bu gün xalqımız və ordumuz Ulu Öndərin hakimiyyətə qayıdışının 25-ci ildönümünü və Silahlı Qüvvələrin yaranmasının 100 illik yubileyini qazanılmış yeni-yeni uğur və nailiyyətlərlə qarşılayır", - millət vəkili Elman Nəsirov deyib.

Azərbaycan Yazıçılar Birliyinin katibi, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "525-ci qəzet"in baş redaktoru, yazıçı-jurnalist Rəşad Məcid Heydər Əliyevin Azərbaycan xalqının və dövlətinin tarixində müstəsna xidmətlərindən, Azərbaycan Ordusunun regionun ən güclü ordularından biri, həmçinin Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin yüksək səviyyədə olmasından qürurla söhbət açıb.



Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, filologiya elmlər doktoru Asif Rüstəmli tez-tez hərbi hissələrdə olmasından, ordumuzun qüdrətindən, şəxsi heyətin hər an Ali Baş Komandanın əmrlərinə müntəzir olmasından iftixar hissi ilə danışıb.

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin kafedra müdiri, hüquq elmləri doktoru, professor Məhəbbət Dəmirçiyeva ordu ilə xalqın indiki kimi heç vaxt belə sıx əlaqələrinin olmadığını deyib və Azərbaycan Ordusunda keçirilən "Açıq Qapı" günlərində, digər kütləvi tədbirlərdə iştirakını yada salaraq hərbi vətənpərvərlik aylığı çərçivəsində keçiriləcək tədbirlərin də yüksək səviyyədə təşkil olunacağına əminliyini bildirib.

Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru, Qarabağ müharibəsinin iştirakçısı Mikayıl Zeynalov UNEC-in professor-müəllim və tələbə heyətinin də bu aksiyaya qoşulduğunu, rektor Ədalət Muradov başda olmaqla, bir qrup professor, müəllim və tələbənin bu yaxınlarda cəbhə bölgələrinə səfər edəcəklərini nəzərə çatdırıb.

Sonda Azərbaycan Respublikasının Əməkdar artistləri Nuriyyə Hüseynova, Aybəniz Haşımova və bülbüllərinin, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi yaradıcı heyətinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant xorunun iştirakı ilə "Milli Qurtuluşdan Zəfərə doğru" adlı ədəbi-musiqili-xoreoqrafik kompozisiya təqdim edilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti,
fotolar
gizir
Mövlan NƏSİRZADƏNİNDİR**

# Türkiyə-Azərbaycan birgə təlimində iştirak edən hərbi kontingent Naxçıvana qayıdıb



*Qars şəhərində keçirilmiş Türkiyə-Azərbaycan genişmiqyaslı birgə taktiki təlimində iştirak edən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti və zirehli texnikası Naxçıvandakı daimi dislokasiya məntəqəsinə qayıdıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, birgə taktiki təlimin son günü "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.

Tədbirdə Türkiyə Silahlı Qüvvələrinin 3-cü Ordusunun komandanı ordu generalı İsmail Serdar Savaşın və Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayevin rəhbərlik etdikləri nümayəndə heyəti iştirak ediblər.

# Kinostudiya ordumuzun salnaməsini yaradır

*1993-cü il iyunun 2-də Azərbaycan Ordusunun inkişaf istiqamətlərini, hərbi həyatın özəlliklərini, müharibə həqiqətlərini bütün konkretliyi ilə əks etdirmək, faktları və hadisələri sənədləşdirmək, qoruyub saxlamaq məqsədilə Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasının əsası qoyuldu.*

Zaman dəyişdikcə, günün tələbləri də dəyişir. Müstəqil Azərbaycanımızla birgə milli zəmində boy atıb inkişaf edən, ictimai və hərbi həyatda baş verən prosesləri gələcək nəsillər üçün, tarix üçün qoruyub saxlamağa qadir olan, Azərbaycan həqiqətlərini beynəlxalq audiovizual məkana inteqrasiya edən Kinostudiyanın yaradılması günün tələbinə çevrildi. Bu baxımdan Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasının əsasının qoyulması xüsusi əhəmiyyət kəsb edir.

25 il tarixi vərəqlədikcə ilk olaraq Seyidağa Mövsümlünün, Babək Quliyevin, Şəmistan Əlizamanlının, Rəşid Hüseynovun, Nizami Abbasın, Telman Nəzərlinin, Etibar Şirinin, Nəriman Əbdürrəhmanlının... çəkdiyi zəhmətlər göz önünə gəlir. Onların sayəsində Azərbaycan Ordusunun 90-cı illərindən əhatəli məlumat əldə etmək mümkündür. Beləcə, həvəskar çəkilişdən peşəkar çəkilişə keçidin əsası qoyuldu və müstəqil Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin tələblərinə cavab verən yeni yaradıcılıq metodu üzrə sənədli filmlər istehsal olunmağa başlandı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini, müasir ordu quruculuğu məsələlərini özündə əks etdirən, inkişaflı gələcəyə doğru addımlayan, yeni dəyərlər formalaşdıran təbliğat və təşviqat sənədli filmlərinin istehsalı ön plana çəkildi.

Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyasının yaradılmasının 25 illik yubileyində Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev bildirdi ki, vətənpərvərlik insanların ölkəsinə duyduğu sevgi və bağlılığıdır. "Vətənpərvərlik həm də xalqına aid olan mənəvi sərvətin, sənətin, mədəniyyətin təəssübünü çəkməkdi. Bu baxımdan Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasının yaradılması Vətənə olan sevginin təzahür formasıdır - əsl vətənpərvərlikdir. Kinostudiyanın yaradılması Azərbaycan Ordusunun, ordu quruculuğunun təbliği deməkdi, ordumuzun tarixi deməkdi, ordumuzun tarixini kadrlarda yaşatmaq deməkdi. Bu tarix Azərbaycan vətəndaşı, Azərbaycan Ordusu, Azərbaycan Ordusunun hərbi qulluqçuları, ən əsası isə Azərbaycan xalqı üçündü".

İdarə rəisi onu da qeyd etdi ki, hərbi sahədə islahatların məqsədi hərbi strategiyanın müəyyənləşdirilməsinə, cəmiyyətimizin, ordumuzun, tariximizin ən önəmli hissələrindən bəhs edən, gənclərdə yüksək vətənpərvərlik hissləri tərbiyə edən əsərlər yaradılmasına köməklik göstərməkdir və Kinostudiya bu istiqamətdə kifayət qədər uğurlu fəaliyyət göstərir. Bu fəaliyyətin arxasında vətənpərvərlik təbliğatı sayəsində xalqa aid olan mənəvi sərvətin, sənətin, mədəniyyətin təəssübünü çəkmək dayanır".

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev güclərini, istedadlarını, bilik və bacarıqlarını birləşdirərək Azərbaycan xalqı naminə fəaliyyətlərini davam etdirmələri yolunda kollektivə uğurlar arzuladı.





Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasının rəisi polkovnik-leytenant Samir Əfəndiyev bildirdi ki, 1993-cü il iyunun 2-dən fəaliyyətə başlayan qurum ilk günlərdən müharibənin xronikasını yaradıb və studiyada arxivləşdirib: "Studiya dövlət televiziyasında "And" proqramı ilə efirə çıxıb, ordu quruculuğunu əks etdirən yüzlərlə verilişlərin, sənədli və tədris filmlərinin, videoçarxların, reklam bloklarının müəllifidir. Bu gün Kinostudiyada 9 iş otağı, 1 foto-montaj otağı, 1 səsyazma studiyası və yeni yaradılan çəkiliş pavilyonu fəaliyyət göstərir. Pavilyon şərti olaraq 3 hissəyə bölünüb. Əsas böyük hissə geniş auditoriya ilə birgə verilişlərin çəkilişi üçün nəzərdə tutulub, ikinci hissə xəbərlər bloku üçün, üçüncü hissə "Səngər" rubrikasına ayrılıb və səngərin imitasiyası ilə tərtib olunub. Pavilyonun tərtibatında yaşıl rəngə üstünlük verilib ki, bu da çəkilişləri asanlaşdıran aparılması, Ali Baş Komandanın qarşıya qoyduğu məsələlərin həll olunması, ordunun güclənməsi, onun maddi-texniki bazasının təmin olunması, zabitlərin və hərbi qulluqçuların sosial problemlərinin həlli, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin hər zaman yüksək olması, gənc nəslin vətənpərvərlik təbliğatı Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələlərdəndir. Sənədli və Tədris Filmləri Kinostudiyası yarandığı gündən vətənpərvərlik təbliğatına xidmət etmək üçün nəzərdə tutulub. Hesab edirəm ki, bu qurumun əsas sistemin yaranmasına xidmət edir. Burada televiziyaların ən son tələbinə cavab verə biləcək çəkilişlərin yüksək səviyyədə aparılmasına imkan verən 10 ədəd kameranın, eyni zamanda qoşulması mümkün olan rejissor pultu və səsyazma avadanlıqları var. Bütün bunlar da çəkiliş zamanı canlı yayıma çıxmaq imkanı yaradır".

Hələ neçə 25 illər keçəcək, Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyası daha böyük uğurlar qazanacaq...

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycanın Müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edəcəkdir

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinin Müdafiə Nazirləri Şurasının Rusiya Federasiyasının Tıva Respublikasında keçiriləcək növbəti iclasında iştirak edəcəkdir.

İyunun 5-dən 7-dək Tıva Respublikasının Kızıl şəhərində keçiriləcək iclasda quruma üzv ölkələrin Müdafiə nazirləri MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektlərini müzakirə edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***5 iyun 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 92 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Cəvahirli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# NATO Azərbaycan sülhməramlılarının Əfqanıstandakı fəaliyyəti ilə bağlı videoçarx yayıb

NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının rəsmi twitter səhifəsində Azərbaycan sülhməramlılarının əməliyyatda iştirakı ilə bağlı xüsusi videoçarx yayılıb.

Əfqanıstandakı Azərbaycan hərbi kontingentinin rəhbəri polkovnik-leytenant Teyfur Rüstəmovun ölkəmizin missiyadakı iştirakının məqsədləri ilə bağlı çıxışının videosu təqdim edilib.

Polkovnik-leytenant Teyfur Rüstəmov:

"Sülhməramlılarımızın NATO-nun rəhbərlik etdiyi əməliyyatlarda iştirakı Alyans ilə Azərbaycan arasında əməkdaşlığın əsas istiqamətlərindəndir. Azərbaycanın milli təhlükəsizlik konsepsiyasında müəyyən olunan "müvafiq beynəlxalq təşkilatların mandatı altında sülhməramlı və böhranlara cavab əməliyyatlarında iştirak" ölkənin müdafiə siyasətinin əsas məqsədlərindən biridir.

Bu kimi əməliyyatlarda iştirakımız ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyə verdiyi töhfəsinin bariz nümunəsi olmaqla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin imkanlarının inkişaf etdirilməsinə və qarşılıqlı koordinasiyanın artırılmasına xidmət edir.

Azərbaycanın yüzdən artıq hərbi qulluqçusu "Qətiyyətli Dəstək" missiyasında iştirak edir. Hazırda missiyada NATO qüvvələri ilə yanaşı, Azərbaycanın iki piyada bölüyü, tibb və qərargah zabitləri xidmət edir.

Azərbaycan Əfqanıstanın gələcəyi naminə səy göstərir".

# "Kütləvi qırğın silahlarından ən yaxşı mühafizə taqımı" adı uğrunda yarış keçirilir



Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, Kimya Qoşunlarında "Kütləvi qırğın silahlarından ən yaxşı mühafizə taqımı" adı uğrunda yarış keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışda taqımların şəxsi heyətinin kütləvi qırğın silahlarından mühafizə texnikası, ştat cihaz, xüsusi texniki vasitə və qurğuları işə hazırlaması, eləcə də hərbi kimyaçıların müəyyən edilmiş normativləri yerinə yetirməsi bacarıqları yoxlanılır.

Nəticələrə əsasən, heyətlərin kütləvi qırğın silahlarından mühafizə, xüsusi və taktiki-xüsusi hazırlıqlarına uyğun olaraq ən yaxşı taqım müəyyən ediləcək.

*Vətənpərvərlik*

# Orta məktəbdə "Bayrağa sədaqət andı"



*Azərbaycan Respublikasının bayrağı dövlətimizin suverenliyinin, xalqımızın azadlığının simvoludur, həmçinin Vətənimizin gücünü və qüdrətini nümayiş etdirir. Əzəməti ilə daima yüksəklikdə dalğalanan üçrəngli bayrağımız onun uğrunda canından keçən oğul və qızlarımızın qanına boyanıb. Bu səbəbdən onu qoruyanların, sahib çıxanların başı üzərində daim dalğalanan dövlət atributlarından ən qiymətlisi - məhz Bayraqdır.*

Bu gün də dövlətimizə, millətimizə, bayrağımıza sədaqətin artırılması məqsədi ilə ölkəmizdə müxtəlif növ tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü, Müdafiə və Təhsil nazirliklərinin dəstəyi ilə "Bayrağa sədaqət andı" adlı tədbir Bakının Xətai rayonundakı şəhid Allahverdi Xəlilov adına 263 saylı tam orta məktəbdə baş tutdu.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, valideynlər, məktəbin müəllim və şagird kollektivi iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

263 saylı tam orta məktəbin direktoru Nurqələm Bayramova tədbiri açıq elan edərək qonaqları salamladı. Məktəbin direktoru qeyd etdi ki, dövlətin atributlarından, dövlətçilik rəmzlərindən biri də onun Milli Bayrağıdır: "Azərbaycan Respublikasının Dövlət bayrağı dövlətimizin suverenliyinin rəmzidir. Üçrəngli bayrağımız türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoludur. Bütün bunları əsas tutan Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışlarının birində deyir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq". Bayraq elə bir müqəddəs varlıqdır ki, onun altında ölmək belə şərəflidir. Bu gün şagirdlərimiz də bayrağımızın qarşısında diz çöküb öz bayrağına sədaqət andı içəcəklər".

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova bildirdi ki, bayrağımız, milli himnimiz qürur mənbəyimizdir. "Şəhidlərimiz bir an belə tərəddüd etmədən xalqımızın azadlıq arzusunu boğmaq və məhv etmək istəyən mənfur düşmənlərə qarşı mübarizə apararaq canlarını fəda ediblər. Bu gün də vətənpərvər oğullarımız düşmənlə təmas xəttində mətinliklə dayanıblar. Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini gözləyirlər ki, Lələtəpədə, Bayraqtəpədə dalğalanan bayrağı Şuşada, Laçında, Xankəndidə... dalğalandırsınlar."



Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti mayor İlkin Qayıbov Azərbaycan Respublikasının Dövlət Bayrağını məktəbin müəllimi Səməd Əliyevə təqdim etdi.

Şagirdlər "Bayrağa sədaqət andı" içərək Azərbaycan Respublikasının bayrağını hər zaman uca tutacaqlarına, yüksəklərdə dalğalanması üçün mübarizə aparacaqlarına söz verdilər və vətənpərvərlik ruhunda, bayrağı tərənnüm edən şeirlər söyləyib, səhnəciklər göstərdilər.

Tədbir Dövlət bayrağının təbliğinə dair hazırlanmış video-çarxın nümayişi ilə sona çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun hərbi qulluqçuları xidmət yerindən qaçaraq Yerevanda keçirilən "Paşinyan inqilabına" dəstək məqsədilə yürüşlərə qoşulduqlarına görə istintaqa cəlb olunublar.

Bununla bağlı açılan cinayət işinin istintaqını aparan müstəntiq Ardak Xaçaturyan onlarla hərbi qulluqçunun Hadrut hərbi prokurorluğuna gəlmələri ilə əlaqədar hərbi hissələrə məktublar göndərib.

Məlumatda bildirilir ki, təkcə bir sorğu məktubunda 6 hərbi qulluqçunun - Qarik Hovoyan, Vosdan Petrosyan, Jora Harutunyan, Avedis Hakopyan, Artur Qriqoryan və Harut Avagimyanın prokurorluğa çağırılması tələb olunur.

Xidmət yerindən qaçıb yürüşlərə qoşulan digər erməni hərbçilərin istintaqa cəlb edilməsi ilə bağlı tədbirlərin görüldüyü də məlum olub.

Qeyd edək ki, Yerevanda keçirilən etiraz aksiyalarında iştirak edən hərbçilərin cinayət məsuliyyətinə cəlb olunub-olunmamaları ilə bağlı iyunun 1-də jurnalistlərin sualını cavablandıran Ermənistan Müdafiə naziri Daviq Tonoyan hərbi qulluqçuların heç bir təqibə məruz qalmayacaqları ilə bağlı yalan vəd vermişdi.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Ali Hərbi Məktəbdə dövlət imtahanları keçirilir

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində dövlət imtahanları keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri ixtisasları üzrə dörd il müddətində hazırlıq keçən kursantlar bilik və bacarıqlarını nümayiş etdirirlər.

Gələcəyin zabitləri sinif otaqları və xüsusi hazırlanmış məntəqələrdə ixtisasları və rəhbər sənədləri bilmələri üzrə nəzəri, çöl-səhra şəraitində isə taktiki və atəş hazırlığı, döyüş texnikasının istismarı, eləcə də digər fənlər üzrə praktiki imtahanlar verirlər.

# Ordu həmkarları Vətən müdafiəçiləri ilə bir arada





Hər bir dövlət müstəqilliyini, mövcudluğunu, təhlükəsizliyini ordusu ilə təmin edir. Vətənin qoruyucusu kimi ordu şərəfli bir vəzifəni yerinə yetirir. Bu vəzifənin müqəddəsliyini dərk edən hər bir vətəndaşımız ordusuna inanır, güvənir, ordu sıralarında xidmət edən hər bir hərbçiyə xüsusi rəğbət bəsləyir. Müxtəlif dövlət qurumlarının, özəl təşkilatların əməkdaşları, millət vəkilləri, orta və ali təhsil ocaqlarının nümayəndələri tez-tez cəbhə bölgələrinə gedərək Vətənin keşiyində dayanan hərbi qulluqçularla görüşlər keçirir, mənəvi dəstəkləri ilə onların gücünə güc qatırlar. Bu görüşlər xalqın daim əsgərinin yanında olduğunu, ona sonsuz güvəndiyini nümayiş etdirir. Belə güvənci hiss edən əsgərlərimiz daha da yüksək əhval-ruhiyyə ilə xidmət aparır, düşmən qarşısında inamla dayanırlar.

Ordumuza mənəvi dəstəyini heç zaman əsirgəməyən təşkilatlardan biri də Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsidir. Müdafiə Naziliyinin hərbi hissə və müəssisələrində öz peşələrinin ustası olan mülki işçilər hərbi qulluqçularla çiyin-çiyinə çalışır, öz bilik və bacarıqlarını, bir qayda olaraq, ordumuzun vəzifələrini uğurla yerinə yetirməsinə sərf edirlər. Onlar öz işlərinə məsuliyyətlə yanaşaraq ordumuzun uğurları üçün bütün potensial imkanlarından istifadə etməyə çalışırlar. Gördüyü işlərlə ölkəmizin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə böyük töhfə verən ordu həmkarları hər il dəfələrlə xeyirxah təşəbbüslər irəli sürərək, ordumuzun zabit və əsgərlərinə mənəvi dəstəyini əsirgəmir. Kollektivin üzvləri tez-tez hərbi hissələrə, xüsusilə cəbhə bölgəsində yerləşən birləşmələrə baş çəkir, şəxsi heyətlə görüşlər keçirir, Vətənin müdafiəçilərinə müxtəlif hədiyyələr və bayram sovqatları aparırlar.

Növbəti belə görüşlərdən biri müqəddəs Ramazan ayında Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşovanın rəhbərliyi ilə ön xətt birləşmələrindən birinin əlahiddə hospitalında baş tutdu. Görüşün məqsədi əlahiddə hospitalda müalicə olunan zabit və əsgərlərimizə baş çəkmək idi. General-mayor Mayis Bərxudarov qonaqları səmimi salamlayaraq, göstərdikləri xeyirxah təşəbbüsə görə onlara minnətdarlığını bildirdi. Zabit dedi ki, qoşunlarımız Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı ilə hərtərəfli əhatə olunub. "Hazırda bizim güclü silahlarımız, raketlərimiz, texnikalarımız var. Bölmələrimizin hər biri Ali Baş Komandanın istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə hazır və qadirdir. Lakin bizim ən güclü silahımız əsgərimizin ürəyidi, döyüş ruhudu. Bu silah isə sizlərin diqqət və qayğısından, güvəncindən atəşlənir. Belə xeyirxah təşəbbüslərinizə, daim əsgərlərimizlə yan-yana olaraq şəxsi heyətin döyüş ruhuna, mənəvi-psixoloji durumuna müsbət təsir etdiyinizə görə sizə və kollektivinizə birləşmə adından təşəkkürümüzü bildiririk".

Əlahiddə hospitalın rəisi tibb xidməti polkovnik-leytenantı Elçin Abdullayevin müşayiəti ilə nümayəndə heyəti əvvəlcə hospitalın xidməti otaqlarının şəraiti ilə yaxından tanış oldular. Qəbul, müayinə, əməliyyat və digər tibbi otaqları gəzərək hospitalın müasir tibbi avadanlıqlar ilə təchiz olunduğunu gördülər. Yeməkxana, istirahət və digər məişət otaqlarının da yüksək təminatının şahidi oldular. Burada müalicə alan əsgərlərlə görüşüb onların səhhətləri ilə yaxından maraqlandılar. Hospitalla tanışlıq başa çatdıqdan sonra ordu həmkarları hospitalın kollektivinə və burada müalicə alan əsgərlərə gətirdikləri nemətlərdən, fəslə uyğun cürbəcür meyvələrdən süfrə hazırladılar. Müxtəlif nemətlərlə bəzədilmiş süfrə arxasında əyləşərək əsgərlərlə həmsöhbət oldular, onlara hədiyyələr təqdim etdilər.

Bütün xalqın qürur və güvənc yeri olan ordumuza BHİK tərəfindən dəfələrlə göstərilmiş mənəvi dəstək zabit və əsgərlərimizə xoş hisslər aşılayır. Belə görüşlərin keçirilməsi xalqın orduya sonsuz güvəncini bir daha sübut edir. Belə tədbirlər əsgərlərin yaddaşından heç vaxt silinmir, xalqımızın əsgərinə güvəndiyini, daim onun yanında olduğunu, dövlət və cəmiyyətin qayğısını onlara hiss etdirir. Bu diqqət və qayğı onların ölkəyə və cəmiyyətə layiqli vətəndaş kimi formalaşmasında önəmli bir stimul rolunu oynayır.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

## May ayında ictimaiyyətlə əlaqələr sahəsində Müdafiə Nazirliyi tərəfindən 50-dən artıq tədbir keçirilib

2018-ci il üçün tədbirlər planına əsasən, may ayında Müdafiə Nazirliyi tərəfindən dövlət, yerli və xarici qeyri-hökumət təşkilatları, icra hakimiyyəti strukturları, təhsil müəssisələri, ictimai qurumlar ilə birgə bir sıra tədbir və layihələr həyata keçirilib, eləcə də müxtəlif televiziya kanalları və informasiya agentlikləri nümayəndələrinin cəbhəboyu zonaya səfərləri təşkil olunub.

Ay ərzində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Ağdam, Ağstafa, Beyləqan, Bərdə, Qazax, Tərtər, Xocavənd, Füzuli, Goranboy, Göyçay, Göygöl, Bakının Xəzər, Xətai, Nizami, Qaradağ, o cümlədən Gəncə, Sumqayıt, Naftalan şəhər İcra Hakimiyyətləri ilə birgə cəbhə bölgələri də daxil olmaqla müxtəlif hərbi hissələrdə, həmçinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrində hərbi vətənpərvərlik mövzusunda 50-dən artıq tədbir keçirilib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci, faşizm üzərində Qələbənin 73-cü ildönümü və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən müxtəlif tədbirlərdə şəxsi heyət, şəhid ailələrinin üzvləri, müharibə veteranları, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, tələbələr, məktəblilər və digərləri yaxından iştirak ediblər.

Hesabat dövründə Azərbaycan Respublikası insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova və qurumun üzvləri, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin və İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin nümayəndələri hərbi hissələrdə şəxsi heyətlə görüşlər keçirərək hərbi qulluqçuların vəziyyəti, xidməti və sosial-məişət şəraiti, göstərilən tibbi yardım, qidalanma rejimi, onun keyfiyyəti və digər məsələlərlə yaxından tanış olublar.

Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci tədris ilinə hazırlıq planına əsasən, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyi tərəfindən cəbhə bölgəsində yerləşən hərbi hissələrdə "Beynəlxalq humanitar hüquq üzrə təlimatçıların təlimi" də keçirilib.

Kütləvi informasiya vasitələrində yayımlanması məqsədilə may ayında Müdafiə Nazirliyi tərəfindən 163 rəsmi məlumat, 758 foto, 10 videomaterial hazırlanıb və media nümayəndələrinin sualları cavablandırılıb.

AzTV, İTV, CBC, ARB televiziya kanalları, "Azərbaycan" qəzeti və ordu.az saytı tərəfindən cəbhəboyu zonada yerləşən hərbi hissələrdə çəkilişlərin aparılması və məqalələrin hazırlanması üçün icazə məktubları verilib.

Bundan əlavə, Bolqarıstanın BTV və Qətərin "Əl-Cəzirə" televiziya kanallarının əməkdaşları, İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının dəvəti ilə ölkəmizə gəlmiş indoneziyalı jurnalistlər, eləcə də Niderlanddan olan müxbirlər cəbhə bölgələrinə səfər edərək bu istiqamətdə xidmət edən hərbi qulluqçuların xidmət və məişət şəraiti ilə tanış olub, Ermənistan ordusunun xarabalığa çevirdiyi evlərin dağıntılarına baxıb, işğal altındakı Azərbaycan ərazilərini müşahidə ediblər.

Ay ərzində televiziya və informasiya agentliklərinin nümayəndələri Müdafiə Nazirliyi tərəfindən təşkil edilən 15 tədbirin işıqlandırılması üçün dəvət alıblar.

**"Azərbaycan Ordusu"**

# Uşaqlar gələcəyimizdir



Ümummilli lider Heydər Əliyev gənclər siyasətinə həmişə önəm verir, ölkənin ictimai-siyasi, mədəni həyatında gələcəyimizin təminatçısı olan uşaqların rolunu və bizim üzərimizə düşən vəzifələri həmişə çıxışlarında vurğulayırdı: "Uşaqlara qayğı hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Uşağa qayğı göstərmək, uşaqları qorumaq, onları müdafiə etmək bizim vətəndaşlıq borcumuzdur". Dövlət gənclər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cəmiyyətimizin ayrılmaz hissəsi olan uşaqların mövqeyi, onların hüquqlarının qorunması ölkəmiz üçün prioritet məsələlərdəndir. Bu gün ölkəmizin gənclər siyasətinin tərkib hissəsi kimi dövlət səviyyəsində bir çox tədbirlər təşkil olunur.

Respublikamızın bir çox təşkilatlarında olduğu kimi, "N" hərbi hissəsində də Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı tədbir keçirildi. Tədbirdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin və Sumqayıt şəhər Mədəniyyət evinin yaradıcı kollektivləri, Pirəkəşkül qəsəbəsində yerləşən şəhid Əfqan Dadaşov adına tam orta məktəbin müəllim və şagird heyəti iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra tədbir açıq elan olundu.

Tədbirdə çıxış edən polkovnik Mehman Kərimov uşaqları bu gün münasibəti ilə təbrik edərək, dövlətimiz tərəfindən onlara göstərilən qayğıdan bəhs etdi. "Ulu öndər Heydər Əliyev uşaqların hüquqlarının qorunmasının, onların cəmiyyətdəki rolunun vacibliyini çıxışlarında hər zaman vurğulayıb. Məhz Ümummilli Liderimizin yürütdüyü siyasətin davamı olaraq Ali Baş Komandanımız İlham Əliyev uşaqların sosial rifahının yaxşılaşdırılması üçün mühüm işlər görür. Dövlət proqramları qəbul edilir və uşaqlar cəmiyyətdə azad bir üzv kimi formalaşır. Valideyn himayəsindən məhrum olmuş uşaqların əhval-ruhiyyəsinin yüksəldilməsinə yönəlik tədbirlər həyata keçirilir."

Polkovnik-leytenant Rasim İbrahimov çıxışında bildirdi ki, gələcəyimiz olan uşaqların sağlamlığı və təhsili ölkənin qarşıya qoyduğu əsas məsələlərdəndir. "Bu gün ölkəmizin şəhər, rayon, kənd və qəsəbələrində yeni müasir təhsil ocaqları tikilir, səhiyyə mərkəzləri açılır. Uşaqların hüquqlarının qorunması təkcə dövlət qurumlarının deyil, hamımızın borcudur. Onların vətənpərvər ruhda böyüməsi də hamımızın ən ümdə vəzifəsidir. Çünki Vətən sevgisi Ana sevgisi ilə bərabər tutulur. Bugünkü tədbirdə gələcəyin əsgərləri kimi iştirak edirlər. Gələcəkdə torpaqlarımızın bütövlüyünə siz gənclərimiz cavabdeh olacaqsınız. Vətəni sevmək əlinə silah alıb döyüşmək deyil, onun uğurları üçün çalışmaqdır. Hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm".

Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi rəngarəng musiqi proqramı ilə tədbir iştirakçılarının sevincinə sevinc qatdı. Sonda Sumqayıt şəhər Mədəniyyət evinin təşkilatçılığı ilə təşkil olunan sərgi və kukla tamaşası tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılandı.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# “Oğullar Vətəni qorumaq üçün doğulur”



*Ana daim narahat bir ömür yaşayır. Körpəsinin ilk tərbiyəsini beşikdən başlayır. Ona Vətən, Torpaq sevgisini laylalarında, bayatılarında aşılayır, qız övladının ana, oğul övladının böyüyəndə əsgər olmasını Allahdan arzulayır.*

...Bu dünyada bir Bətulə ana var. O da başqa analar kimi nankor qonşularımız ata-baba torpaqlarımıza hücum edəndə "Oğullar Vətəni qorumaq üçün doğulur" deyib yeganə oğul övladı Əlini cəbhəyə - Qarabağımız uğrunda gedən döyüşlərə yola saldı. Bətulə ana hər duranda, oturanda üzünü göylərin sahibi Ulu Tanrıya tutaraq "mən oğul böyütdüm Allah eşqinə, xalqımın gələcəyi və ölkəmizin azadlığı naminə Azərbaycan uğrunda savaşa göndərdim", - deyə hər zaman Tanrı ilə kəlmələşir.

Bu günlərdə redaksiyanın tapşırığına əsasən, Bətulə xanımla telefon əlaqəsi yaradıb oğlu Əli Cabbarov haqqında xatirələrini qələmə almaq istəyimizi ona bildirdim və yaşadığı evin ünvanını soruşdum. "Qızıl Şərq Hərbi şəhərciyi 98...", - deyə söylədi Bətulə ana. Deyilən ünvana yollanırıq. Bu da Azərbaycanımızın müstəqilliyi, torpaqlarımızın azadlığı uğrunda özünü odun-alovun içərisinə atan Vətən oğullarından biri Əlinin vaxtilə yaşadığı bina, mənzil... Əli bu mənzildə son dəfə ata-anası, bacıları ilə görüşüb müqəddəs bir yola - əbədiyyət yoluna çıxdı. O yol Azərbaycanımızın ürəyi Qarabağa, Şuşaya gedən yol idi... Bu müqəddəs yola çıxan minlərlə Vətən oğlunun sırasında Əli də var idi.

Əli bir neçə dostu ilə birlikdə yenicə yaradılmaqda olan ordu sıralarına könüllü yazıldı. Dostları Ağdam, Goranboy, Füzuli cəbhəsinə, o isə əvvəlcə Laçının, sonra Şuşanın müdafiəsinə göndərilir. Əli dəmir atın belində Laçının, Şuşanın dağlarında düşmənə qarşı amansızcasına vuruşurdu.

Şuşa-Laçın yolu... 1992-ci il... Mayın 8-i... Səhər tezdən erməni quldur dəstələri Şuşa şəhərini güclü artilleriya atəşinə tutur. Ermənilər Laçına gedən yolu kəsməklə Şuşanı tam mühasirəyə almışdılar. Hərbi texnika və canlı qüvvə baxımından qat-qat üstün olan düşmənlə qeyri-bərabər döyüşdə Əli başından ağır yaralanır. Onu döyüş mövqeyindən çıxara bilmirlər. Şuşa erməni təcavüzkarları tərəfindən işğal olunanda Əli bir neçə döyüş yoldaşı ilə birlikdə itkin düşür...

Haşiyə. Bu müharibədə bir tək yurdumuz, Vətənimiz itkin düşmədi. Qədim milli mədəniyyətimiz, tariximiz, eyni zamanda günahsız insanlarımız, Qarabağımız uğrunda döyüşlərə atılan neçə-neçə gəncimiz itkin düşdü. İllərdir övladı şəhid olan, itkin düşən analarla görüşüb qəzetimizə yazı hazırlayırıq. Onların göz yaşlarına şahid olub ana yanğılarını dinləyirik. Sonra da bu yanğıları sözlərə çevirib məqalə hazırlayırıq...

...1971-ci ildə Telman kişinin ailəsində dünyaya göz açmışdı Əli. Həmyaşıdları kimi o da dərdsiz-qəmsiz, qayğısız böyüyürdü. Əlinin uşaqlıq illərində böyük maraqla baxdığı filmlərdəki odlu-alovlu müharibə səhnələrində diqqətini cəlb edən "düşmən" əsgərlərinə qarşı cəsarətlə döyüşən tanklarımız olur. Məhz uşaqlıq çağlarındakı marağı, həvəsi onu C.Naxçıvanski adına hərbi məktəbə gətirib çıxarır. 1985-1988-ci illərdə ibtidai hərbi təhsil alan Əli burada ilkin hərbi vərdişlərə yiyələnir. Taleyini hərb peşəsinə bağlayacağını qarşısına məqsəd qoyan Əli Vətənə,Torpağa sədaqət andı içərək Daşkənd tank hərbi məktəbinə daxil olur. Bu vaxt Sovet imperiyasının dağılan və 1988-ci ilin qarmaqarışıq çağlarıydı. Xalqlar həbsxanası sayılan imperiya artıq çökməkdəydi. İmperiya boyunduruğundan xilas olmağa çalışan xalqlar milli azadlıqları uğrunda mübarizəyə qalxmışdılar. Azərbaycanımızın qismətinə isə müqəddəs torpaqlarını yadelli işğalçılardan qorumaq və onun müdafiəsində dayanmaq məsuliyyəti düşmüşdü. Daşkənddə Əliyə qarşı münasibət də elə bundan sonra dəyişmişdi. Erməni fitnəsinin qurbanı olan Əlini hərbi məktəbdən çıxarıb Aşqabada hərbi xidmətə göndərirlər. Oradan isə Əfqanıstana yola salırlar. Əfqanıstan müharibəsinin ölüm qoxuyan nəfəsindən sağ-salamat qurtaran Əli 1991-ci ilin yayında hərbi xidmətini başa vurub doğma Vətəni Azərbaycana qayıdır. Bir müddət Bakıda mətbəədə işləyir. Lakin erməni silahlı qüvvələrinin ölkəmizə qarşı başladığı elan olunmamış müharibə qeyrətli Vətən övladları kimi onu da əlinə silah götürməyə məcbur edir. 1991-ci ilin dekabrında milli ordunun tərkibinə daxil olur...



... Ağsaçlı ananın nur çilənmiş simasında xoş təbəssüm görünür. Bətulə ana köhnə albomlardan saralmış fotoları götürüb bir-bir stolun üzərinə düzür və onlar haqqında danışmağa başlayır: "Bu, Əlinin babasının şəklidir. O da hərbçi olub. Polkovnik İdris Cabbarov. Böyük Vətən müharibəsi illərində azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasının tərkibində Mozdokdan Berlinədək döyüş yolu keçib. Çoxlu orden və medalları var idi. Əli də onun yolunu davam etdirmək istəyirdi. Qismət olmadı. Yeri gəlmişkən deyim ki, qız nəvəm Məmmədrəfi Kərimov C.Naxçıvanski adına Hərbi Liseydə oxuyur. O dayısının qısa, lakin şərəfli ömür və döyüş yolunu davam etdirəcək. Bu da mənə bir təsəllidi."

Bətulə ana "nə xoş bir gündə görüşürük", - deyə bildirir: "Bu gün Əlinin doğum günüdür. 47 yaşı tamam olur. Vətən uğrunda, Torpaq uğrunda döyüşüb şəhid olan, itkin düşən övladlarımız heç zaman ölmürlər. Onların narahat ruhları bizimlədir. Tezliklə, düşmən işğalında olan Qarabağımız, Şuşamız azad olunacaq, qaçqın və köçkünlük həyatı yaşayan həmvətənlərimiz öz ata-baba yurduna dönəcək. O zaman onların da ruhları rahatlıq tapacaq."

Yaddaşının dərinliyində qoruyub saxladığı Əli ilə bağlı şirin uşaqlıq xatirələrini də bizə danışmaqdan məmnunluq duyur Bətulə ana. Əlinin uşaqlıqda hərbi formada çəkdirdiyi şəkillərini göstərir və deyir: "Onun hələ kiçik yaşlarından hərbiyə böyük marağı var idi. Əli babasının hərbi papağını başına qoyub deyərdi: Baxın mənə, necə gözəl yaraşır, böyüyəndə mən də hərbçi olacam". Oldu da. Vətənin dar günündə əyninə əsgər formasını geyinib, silaha sarıldı. İçdiyi Hərbi anda sonadək sadiq qaldı. Əli çox vətənpərvər, cəsur, həm də çox qorxmaz övlad idi. Hərbi məktəbdə oxuyanda bəzi silahların atış qaydalarını mükəmməl öyrənmişdi. Həm də tankçı idi. Tankı idarə etməyi bacarırdı. O deyirdi ki, mən bu torpağın oğluyam. "İndi Vətən dardadır. Onu qorumağa biz oğullar borcluyuq. Vətən qarşısında övladlıq borcumuzu verməyə biz hər an hazır olmalıyıq. Xocalı faciəsinin qurbanlarının qisasını almalıyıq." Mən bir ana kimi oğlumla qürur duyuram. Qürurluyam ona görə ki, Vətən üçün dünyaya gətirdiyim oğul, Vətən yolunda şəhid olub... Axı oğullar Vətəni qorumaq üçün doğulur."

Bətulə ana həyat yoldaşı Telman müəllimin bir neçə il öncə dünyasını dəyişdiyini söylədi: "Atası da həmişə Əlinin sözlərini təsdiqləyər və deyərdi ki, çox düz deyirsən, oğlum. "Vətən darda olanda onun övladları ayağa qalxıb silaha sarılar. Hər gün cəbhədən acı xəbərlər alırıq. Vətəni sən qoruma, o qorumasın. Bəs kim qorusun?" Bu gün mən fəxr edirəm ki, Mübariz İbrahimov, Fərid Əhmədov kimi qəhrəman, mərd oğulların döyüş yolunu Azərbaycan gəncləri özlərinə örnək bilirlər. Azərbaycan Ordusunun sıralarında vətənpərvər, cəsur oğullar xidmət edir. Onların hamısı mənim övladlarımdır. Bu gün bizim güclü ordumuz var. Müstəqil, azad Vətənimizin keşiyində dayanan qəhrəman hərbçilərimiz şəhid olan, itkin düşən Əli kimi yüzlərlə oğullarımızın qisasını alıb, bundan sonra da alacaqlar."

Qeyd edək ki, bir müddət öncə Bətulə ana şəhid olan və itkin düşən vətəndaşların bir qrup ailə üzvləri ilə birlikdə redaksiyamızda olmuşdu. Onlar Prezident İlham Əliyevin imzaladığı Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan və itkin düşən hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında fərmanı ilə əlaqədar olaraq qəzetimiz vasitəsilə dövlət başçımıza minnətdarlıqlarını ifadə etdilər. Ölkə rəhbərinin bu fərmanı onlara dövlətimizin diqqət və qayğısının bariz nümunəsi kimi dəyərləndirildi.

Bətulə ana söhbətinin sonunda bir daha dövlətimizin onlara göstərdiyi diqqət və qayğısını yüksək qiymətləndirərək ölkə rəhbəri Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi. Gün-gündən çiçəklənən müstəqil Azərbaycanımıza həmişəyaşarlıq, xalqımıza xoş, firavan günlər arzuladı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyənin Tunceli bölgəsində terror aktının qarşısı alınıb



Türkiyənin Tunceli vilayətində ağır nəticələnə biləcək terror aktının qarşısı alınıb.

Ölkənin təhlükəsizlik qüvvələri Tunceli-Pülümür avtomobil yolunda içərisində 200 kiloqram partlayıcı olan 3 bidon aşkarlayıb. Terror aktının törədilməsi üçün hazır vəziyyətdə olan partlayıcının 7 terrorçu tərəfindən quraşdırıldığı aşkarlanıb. Onların ələ keçirilməsi üçün bölgədə antiterror əməliyyatına başlanılıb.

### İranda hərbi təyyarə qəzaya uğrayıb



Bu gün İranın Hərbi Hava Qüvvələrinə məxsus F-7 tipli təyyarə İsfahan şəhəri yaxınlığında qəzaya uğrayıb.

Yerli mətbuatın verdiyi məlumata görə, qəza baş verən an təyyarəni idarə edən pilotlar paraşüt ilə atlanaraq sağ qalıblar. Hadisə yerinə hərbi mütəxəssislər cəlb edilib. Qəzanın səbəbləri araşdırılır.

### Kabildə partlayış: 14 nəfər həlak olub, 17 nəfər yaralanıb



Kabildə universitet yaxınlığında baş verən partlayış nəticəsində həlak olanların sayı 14 nəfərə çatıb, 17 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb.

TOLOnews telekanalının yaydığı məlumata görə, partlayış ilahiyyatçı alimlərin ölkədəki vəziyyətlə əlaqədar fətva vermək üçün yığışdığı çadırı tərk etdikləri vaxt törədilib. Ölənlər arasında 7 din xadiminin və təhlükəsizlik xidmətinin 4 əməkdaşının olduğu bildirilir.

Polisin məlumatına əsasən, partlayıcı qurğu terrorçu-kamikadze tərəfindən işə salınıb. Hələlik ölkədə fəaliyyət göstərən heç bir qruplaşma partlayışın məsuliyyətini öz üzərinə götürməyib.

Qeyd edək ki, 2014-cü ildə ABŞ hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən yaraqlılar böyük şəhərlərdə intiharçı hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşması da aktiv fəaliyyət göstərir.

### Liviya sahillərində 160-a yaxın miqrant xilas edilib



Qeyri-hökumət təşkilatı "NGO SOS Mediterranee"yə məxsus "Aquarius" xilasedici gəmisi Liviyanın Homs şəhərindən şimalda, Aralıq dənizində qayıqda olan 158 miqrantı xilas edib.

Miqrantlar Qərbi Afrikadan, Banqladeşdən, Sudandan və Mərakeşdən olublar. Miqrantların əksəriyyəti Liviyada zorakılığa, təhqirlərə və əsassız həbslərə məruz qaldıqlarını bildirib.

### ABŞ-la sammit öncəsi KXDR-də ali hərbi rəhbərlik dəyişilib



Şimali Koreyanın ali hərbi rəhbərliyində yerdəyişmələr baş verib. Əsas hərbi rəislərin hər üçü öz postlarını tərk edib.

KXDR-in xalq Silahlı Qüvvələri naziri vəzifəsində Pak Yön Tsiki onun müavini No Qvan Çhol əvəz edib. Koreya Xalq Ordusunun qərargah rəisi general Li Mön Su da öz postunu tərk edib və onun yerinə müavini Li Yon Qil təyin olunub.

Hərbi rəhbərliyin öz postunu tərk edən üçüncü nümayəndəsi isə Koreya Xalq Ordusunun baş siyasi idarəsinin direktoru Kim Çon Qah olub. Onu əvvəllər Koreya İşçi Partiyasının Pxenyan komitəsinin sədri vəzifəsində çalışan Kim Su Hil əvəzləyib.

Xatırladaq ki, ötən həftə Donald Tramp iyunun 12-də Sinqapurda keçiriləcək sammitə hazır olduğunu təsdiqləyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Vətən gözdü - biz kirpik...



Vətən gözdü - biz kirpik. Bu misra hər birimizin yaşam fəlsəfəsidir.

Vətənpərvərlik Vətənə sevgidi...

Vətən - dünyaya göz açdığın diyardı...

Vətən - ulularımızın əmanətidi...

Vətən - tariximiz, müstəqilliyimiz, gələcəyimizdi...

Vətən sevgisi. İlahi sevgi ilə bir tutulan bu məfhum haqqında tarixlər boyu çox yazılıb, çox deyilib. Qədim dövr şairlərindən olan Asmai Vətən sevgisini belə ifadə edib:

- Uzun illər dünyanı gəzən bir bədəvinin dediyini eşitdim: "Əgər kişini tanımaq istəyirsənsə, onun Vətəni, dost-qardaşları üçün necə darıxdığına və keçmişi üçün ağlamasına bax ".

Asmainin bu fikirləri Vətən sevgisinə verilən dəyərdi, müqəddəsliyin dərunidi. İnsan övladının doğma Vətəninə ruhi və hissi sevgisinin vurğulanmasıdı.

İnsan Vətənini sevməli, ona daim sədaqətli olmalıdır. Çünki Vətən sevgisi cücərən toxum kimidir. Bu toxum insanın ruhuna ana nəfəsi, dilə gətirilən ana kəlməsi ilə səpilir. Beləcə, ruhi sevgi başlayır. İnsan böyüdükcə, özünü dərk etdikcə bu toxum cücərir, ruha yayılaraq əvəzedilməz duyğuya çevrilir. Uşaq yaşlarından ürəyində kök salan bu sevgi ilə rahatlıq tapır, qürbətdə darıxır. Torpağına qəsd olunarsa, müdafiə edir.

Bu gün Vətən keşiyində dayanan Azərbaycan əsgəri torpağımızın işğaldan azad edilməsi zərurətinin əsgəridir. Hər an döyüşə hazır vəziyyətdə Ali Baş Komandanın döyüş əmrini gözləyir. 2016-cı ilin aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını qətiyyətlə aldı. Bu, aprel zəfəri kimi tarixləşdi.

Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonundakı Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonundakı Lələtəpə yüksəkliyi, Goranboy rayonundakı Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətlərində bəzi mövqelər düşməndən azad olundu. Bununla da ermənilərin keçilməz səngərləri haqqında mifi alt-üst edildi. Təbii ki, döyüşlərin qalibiyyətlə nəticələnməsi Vətəninə candan bağlı oğullarımızın döyüş və mənəvi-psixoloji hazırlığı ilə bir sırada Vətən sevgisi sayəsində oldu. Havadarlarına, havadarlarının silah-texnikasına güvənən düşmən bir məqamı unudur: Azərbaycan əsgərinin ən güclü silahlarından biri Vətən sevgisidir. Bu məqam döyüş meydanında təsdiqləndi. Düşmənin əsgərləri silahını ataraq döyüş meydanından qaçır, Azərbaycan Ordusunun əsgərləri yaralansalar da, bir addım belə geri çəkilmirdi. Həmin döyüşlərdə Azərbaycan əsgərinin igidliyi, cəsurluğu, şücaəti onun Vətən sevgisindən güc aldığını bütün dünyaya bir daha xatırlatdı. Bir deyim var: "Heç kim qəhrəman kimi dünyaya gəlmir. Qəhrəmanlar döyüşdə doğulur". Bütün bunlar həm də Azərbaycan gəncliyinin ailədə, cəmiyyətdə, təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsində formalaşdığının təsdiqidir. Belə bir cəmiyyətdə böyüyən gənclik torpaqlarımızın işğalda olduğunu, onun işğaldan azad edilməsi zərurətini yaxşı dərk edir, xidmətə gəldikləri ilk gündən nizam-intizamlı olur, əsl döyüşçü kimi formalaşır, Vətənini layiqincə qoruyur. Əbədiyaşar komandan Heydər Əliyevin gənclər qarşısında çıxışlarından birində dediyi "Vətəni qorumaq - öz ana torpağını, evini, obasını, yurdunu qorumaqdır. Vətəni qorumaq - öz namusunu, şərəfini qorumaqdır. Vətəni qorumaq - öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq - Azərbaycan xalqının tarixini, mənəviyyatını, əslər boyu əldə edilmiş milli mədəniyyətini, əsrlər boyu əldə edilmiş milli iftixarını qorumaq deməkdir. Bu şərəfli yoldur, bu şərəfli vəzifədir" kəlamlarını ordu sıralarında xidmət edən hər bir gənc özünə həyat devizi, yaşam fəlsəfəsi bilir, Vətən sevgisini bütün duyğulardan üstün tutur, torpaqlarımızın keşiyində inamla dayanır...

Aprel döyüşlərindən danışanda Türkiyənin İstiqlal savaşını, konkret olaraq Çanaqqala savaşını xatırlayıram. Qəhrəmanlıq dastanlarına mövzu olan bu savaşlar türk gəncliyinin Vətən sevgisinin qələbəsi, şəhidlərin ruhunun qələbəsi idi...

1915-ci ilin 18 martında dünyanın ən güclü donanmaları Çanaqqala boğazından asanlıqla keçib gedəcəklərini zənn etsələr də, qarşılarında sinəsini sipər edən qəhrəman türk mehmetçiklərini gördülər. Bu döyüşdə qorxmaz türk əsgərinin Vətən sevgisi qələbə qazandı. Çanaqqala zəfərindən 103 il ötür. Amma bu qəhrəmanlıq dastanı unudulmur, unudulmayacaq da. Aprel döyüşlərində ermənilər uğur qazanmaq xülyasında idilər. Düşmən Ohanyan səddinə güvənmişdi. Lakin canlarını Vətən torpağı uğrunda qurban verməyə hazır olan əsgərlərimiz tarixi qələbə qazandılar. 1915-ci ildə Çanaqqalada, 2016-cı ildə aprel döyüşlərində Vətən sevgisi qələbə çaldı. Gizir Əli Eynullayevin Talışın sol istiqaməti ilə hərəkət əmri alması, bu zaman strateji əhəmiyyətli yüksəkliyi ələ keçirmək üçün tankları arxasıyca aparmaq məqsədi ilə düşmən postuna şığıması ilə göstərdiyi qəhrəmanlıq möhtəşəm tarixdir. Bu şücaət mənə Seyid onbaşını xatırlatdı. Çanaqqala savaşı zamanı bir neçə əsgərlə sağ qalan Seyid düşmən gəmisinin yaxınlaşdığını görür, əvvəlcə dənizə, gəmilərə, sonra topa və nəhayət, 275 kiloqramlıq mərmiyə baxır. Vətən sevgisindən güc alaraq mərmini kürəyinə alır, topun yuvasına yerləşdirir və atəş açır. Dəqiq zərbə nəticəsində düşmən gəmisi suya batır. Topçu Seyid Alinin və tankçı Əli Eynullayevin şücaəti Vətənə dəruni sevginin təzahürüdür, şübhəsiz; aprel döyüşlərində, eləcə də Çanaqqala savaşında qələbənin başlıca səbəbi Vətən sevgisi idi. Qəhrəmanlığın, igidliyin nəticəsi olan bu döyüşlər haqqında deyilən fikirlər tarixi qələbələrin hər zaman diqqət mərkəzində olacağının zəmanətidir.

Ali Baş Komandan İlham Əliyev deyir: "Təmas xətti dəyişdirildi. Bu gün Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü özündə saxlayır. Aprel döyüşləri, - mən bunu əvvəllər də qeyd etmişdim, - hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir".

Türkiyənin Baş naziri Binəli Yıldırımın "Çanaqqala qələbəsi əlamətdar hadisə, şərəf və həyəcanla dərk edilən, tarixin səhifələrinə yazılan ən uğurlu dastanlardan biridir. Bu zəfər dünyaya "Çanaqqala keçilməz" mesajını verdi. Bu qələbə tarixin axarını dəyişdirəcək qüdrəti göstərdi. İstiqlalını və ölkənin hər yerində rahatlıq və təhlükəsizliyini qorumaq üçün fədakarlıqlar edən türk milləti 1915-ci ilin 18 mart tarixində ən güclü, ən zirehli, ən ağır silahlarla təmin olunmuş orduları necə dizə gətirməyi dünyaya göstərmişdir" fikirləri də məhz Vətən sevgisinin işığında daha əzəmətlə səslənir.

2006-2010-cu illərdə Ukrayna Silahlı Qüvvələri Baş Qərargahının rəis müavini olan ehtiyatda olan general-leytenant İqor Romanenko "Hesab edirəm ki, 2016-cı ildə Qarabağda baş verən aprel döyüşləri yalnız Azərbaycanın artan potensialını təsdiq etmədi, həm də onun bütün bu müddət ərzində realizəsini nümayiş etdirdi. 2016-cı ildən indiyədək Azərbaycan Ordusunun təchiz edildiyi silahlanma çərçivəsi genişlənib və məncə, Azərbaycanın hərbi potensialı əhəmiyyətli dərəcədə artıb" kimi fikirlər, bu tarixi zəfərlərin heç vaxt unudulmayacağını, daim xatirələrdə yaşayacağını, qələbələrin davamlı olacağını göstərir. Torpaqlarımızı hazırda xidmətdə olan əsgərlərimizin azad edəcəyinə xalqımız tam əminliklə inanır.

Əsgərlərimizin Vətən sevgisinə, onların torpağa candan bağlılığına cəbhə xəttində ezamiyyətdə olarkən şahid oluruq. Atıcı əsgər Tural Əlizadə ilə soyuq havada apardığımız isti dialoqu heç vaxt unutmaram.

- Hava soyuq, səngər soyuq... Üşümürsən?

- Ürəyim istidir, üşümürəm... Ürəyimi isidən Vətən sevgisi varlığıma güc verir.

- Azərbaycan əsgəri olaraq borcunu nədə görürsən?

- Vətənimizi qorumaqda, torpaqlarımızı azad etməkdə, soyuq səngərdə isti ürəklə dayanmaqda...

- Hazırda döyüş növbəsindəsən və düşməni müşahidə edirsən. Nə görürsən?

- Bütöv Azərbaycanı görürəm, Qarabağı görürəm...

- Arzun nədir?

- Baxın, o uca təpədə Azərbaycan bayrağı dalğalanacaq... Mütləq dalğalanacaq... O gün uzaqda deyil...

Əsgərlərimizin Vətən sevgisinin istisinə qızınmaq istəyirsən, onlarla döyüşə atılıb qələbənin şirinliyini dadmaq istəyirsən. Turallarla, Samidlərlə, Əhmədlərlə... birgə xidmət edib Vətəni belə sevməmək mümkünsüzdür.

Ön xətt hərbi hissəsində xidmət edən əsgər Nikita Martışevlə söhbətim də unudulmayan xatirələr sırasındadır. O, rus əsilli olsa da, Azərbaycan vətəndaşı olaraq ön xətdə hərbi xidmətdədir. Onun Vətən sevgisi, torpağa bağlılığı, düşmənimizə nifrəti diqqətimi cəlb etmişdi.

- Nikita, rus millətindən olan birinin Azərbaycan torpağını bu qədər sevməsinin səbəbi nədir?

- Mən bu torpaqda yaşayıram, burada doğulub, bu torpağa can demişəm. Bütün əsgər yoldaşlarım kimi Ali Baş Komandanımızın əmrinə müntəzirəm.

- Azərbaycan əsgəri olaraq vəzifən nədir?

- Torpaqlarımızı qorumaq, Qarabağı azad etmək...

Rus əsilli Nikitanın bu cavabı həmin an gözümdə bir müsahibəni canlandırdı. Qarabağ müharibəsində tank üstündə gülümsəyərək jurnalistin suallarına cavab verən Albert Aqarunovu.

- Adın nədir?

- Albert.

- Hansı millətdənsən?

- Yəhudi.

- Yəhudiləri Azərbaycan torpağını qorumağa nə vadar edir?

- Mən bu torpaqda yaşayıram, doğulmuşam burada, yaşayıram burada, daha heç nə məcbur eləmir.

- Bir vətəndaş kimi borcunu nədə görürsən?

- Gəlib torpağı qorumaqda.

- Nə qədər vuruşmağı düşünürsən?

- Müharibənin axırına kimi…

Bu müsahibəni izləmişik, Milli Qəhrəman Albert Aqarunovu tanımışıq, sevmişik, unutmuruq. Bu gün ordu sıralarında Nikita kimi, Albert kimi Azərbaycanın ərazi bütövlüyünü canından üstün tutanlar, Vətən sevgisinin istisinə qızınan Turallar, Samidlər, Əhmədlər... tarix yaratmaq üçün Ali Baş Komandanın əmrini gözləyirlər. Ürəklərindəki Vətən sevgisini silah, gözlərindəki düşmənə nifrəti zireh hiss edərək Böyük Qələbənin əsgərləri olacaqlar. O gün torpaqlarımız azad ediləcək. Aldığı yaraların sızıltısı, torpağın ahnaləsi dinəcək. Bir atalar sözündə deyildiyi kimi, "Bülbülü saldılar qəfəsə dedi: "Ay Vətən, Ay Vətən". Buraxdılar, qondu tikan koluna, dedi: "Can Vətən, Can Vətən". Qarabağ qəfəsdəki bülbül kimidi... Tezliklə öz qəfəsindən Azərbaycan əsgərinin şücaəti ilə azad olunacaq...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

*Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkil etdiyi "Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş "Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsinə təqdim edilir*

Baş redaktor
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Lalə HÜSEYNOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 395
Nüsxə 3525